

# Böyük ruhun qısa ömrü - sözü ilə azadlıq carçısı

# Mikayıl Müşfiq

**Azərbaycan ədəbiyyatının XX əsrdəki inkişaf prosesində mühüm rol oynamış sənətkarlar sırasında Mikayıl Müşfiq xüsusi yer tutur. O, qısa, lakin məhsuldar yaradıcılığı ilə milli poeziyada yeni mərhələnin əsasını qoymuş, mövzu və forma baxımından ədəbiyyatımıza yeniliklər gətirmişdir.**

Müşfiq həm poetik dilin emosionallığını, həm də məzmunun ictimai və bəşəri dəyərlərlə zənginliyini birləşdirən qələm sahiblərindən idi. Onun yaradıcılığı ötən əsrin 20-30-cu illərində Azərbaycanda baş verən sosial, siyasi və mədəni dəyişikliklərin fonunda formalaşmış və bu dəyişikliklərə ədəbi reaksiya kimi meydana çıxmışdır. Həmin dövrdə poeziyada rəsmi ideoloji tələblərlə yanaşı, fərdi baxışın, insan psixologiyasının və lirik təfəkkürün ifadəsi də aktuallaşırdı. Mikayıl Müşfiq məhz bu tendensiyanı təmsil edərək həm zamanın ictimai ovqatını, həm də fərdi duyğuları poetik şəkildə ifadə etmişdir. Şairin yaradıcılığında romantik duyumla realist baxışın sintezi, klassik ənənələrlə müasir düşüncə tərzinin vəhdəti açıq şəkildə görünür. Sevgiyə, təbiətə, insana, azadlığa dair yazdığı şeirlər oxucu ilə emosional bağ yaratmış, poeziyada səmimiyyət və təbilik nümunəsi kimi qarşılanmışdır.

"Müasir dövrün Füzulisi" kimi tanınan Mikayıl Müşfiq 1908-ci il iyunun 5-də Bakıda dünyaya göz açmışdır. Atası Mirzə Əbdülqadir İsmayılzadə (ədəbi təxəllüsü Vüsaqi) dövrünün maarifçi ziyalılarından biri kimi tanınmış, müəllimlik fəaliyyəti ilə yanaşı, ədəbi yaradıcılıqla da məşğul olmuş, klassik üslubda şeirlər qələmə almışdır. Ailəsinin mənəvi-mədəni mühiti Mikayıl Müşfiqin gələcək ədəbi yaradıcıllığına təsir etmişdir. Hələ azyaşlı ikən hər iki valideynini itirən Mikayıl yaxın qohumlarının himayəsində böyümüş, həyatın çətinliklərinə baxmayaraq, təhsilini davam etdirmiş, ədəbi dünyaya doğru ardıcıl və məqsədyönlü addımlar atmışdır. Həyatın çətin sınaqları ilə üzləşən gənc Mikayıl uşaqlıq dövrünün ağrı-acılarının bir hissəsini "Ana" şeirində belə qələmə almışdır:

*Ana dedim, ürəyimə yanar odlar saçıldı,*
*Ana dedim, bir ürpəriş hasil oldu canımda,*
*Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,*
*Ana dedim, fəqət onu görməz oldum yanımda…*

Mikayıl Müşfiqin şair kimi formalaşmasında nənəsi Qızqayıt xanımın əvəzsiz rolu olmuşdur. Uşaqlıq illərində nənəsinin söylədiyi nağıllar, bayatılar və atalar sözləri gənc Mikayılın xalq ədəbiyyatının bədii-estetik dəyərlərini qavramasına zəmin yaratmışdır. Bu mənəvi miras onun poetik dünyagörüşünün ilkin qaynaqları sırasında xüsusi yer tutur. Müşfiq ibtidai təhsilini rus-Azərbaycan tipli məktəbdə almış və humanitar fənlərə, xüsusilə ədəbiyyata dərin maraq göstərmişdir. İkidilli təhsil sistemi ona klassik Şərq ədəbiyyatı ilə yanaşı, rus və Avropa ədəbiyyatının aparıcı istiqamətləri ilə də tanış olmaq imkanı vermişdir ki, bu da onun poeziyasının məzmun və üslub palitrasını zənginləşdirmişdir. 1927-1931-ci illərdə Azərbaycan Dövlət Darülfününunda (indiki Bakı Dövlət Universiteti) dil və ədəbiyyat fakültəsində ali təhsil alaraq elmi-nəzəri biliklərini dərinləndirmiş, məzun olduqdan sonra müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Onun pedaqoji fəaliyyəti maarifçilik missiyasının davamı kimi təzahür etmişdir.

1931-ci ilin may ayında Mikayıl Müşfiqin şəxsi həyatında mühüm dönüş nöqtəsi baş verir. Gənc şair Geoloji İnstitutun buraxılış gecəsində Dilbər adlı tələbə qızla tanış olur. Bu tanışlıq şairin həyat və yaradıcılığında dərin iz qoyan sevgi hekayəsinin başlanğıcı olur. Müşfiq Dilbər xanıma dərin məhəbbət bəsləyir. Hisslərini məktublarda və şeirlərdə ifadə edən şair hər görüşə yeni yazdığı poetik nümunələrlə gələrək duyğularını söz vasitəsilə Dilbərə çatdırmağa çalışır. Romantik münasibətləri qısa müddətdə ciddiləşir. O illərdə görkəmli şair "Azərnəşr" də redaktor vəzifəsində çalışmaqla yanaşı, Bakı şəhərindəki 18 nömrəli məktəbdə müəllimlik fəaliyyəti ilə də məşğul olurdu. Müəllimlik peşəsinə yüksək məsuliyyət hissi ilə yanaşan Müşfiq səmimiliyi, mehribanlığı və yaradıcılığa sövq edən yanaşması ilə seçilirdi. Onun şagirdlərindən biri müəllimini belə xatırlayırdı: "Müşfiq müəllim dərs deyəndə zəng səsini eşitməzdik. Dərs zamanı şagirdlərə şeir oxumağı öyrədəndə, digər müəllimlər də gəlib bizim sıralarda otururdu. Çoxumuza "qızım", "oğlum" deyə müraciət edərdi. Əslində bu sözlər onun yaşına uyğun gəlmirdi. Ancaq mehriban və təvazökar təbiəti bu ifadələri ona çox yaraşdırırdı…".

1930-cu illərin sonlarında Mikayıl Müşfiqə qarşı basqılar intensiv xarakter almışdı. Tənqidlər əksər hallarda obyektiv mülahizələrə deyil, qısqanclıq, şəxsiyyətə qarşı kampaniya xarakterli hücumlara əsaslanırdı. Çünki həmin dövrün aparıcı ədəbi şəxsiyyətlərinin, məsələn, Hüseyn Cavidin onu "Gələcək şeirimizin tacidarı" kimi səciyyələndirməsi, Səməd Vurğunun isə "Məni yalnız Müşfiq keçəcək" kimi fikirlər səsləndirməsi şairin istedadına verilən yüksək dəyər idi. Bu isə sovet ədəbi mühitində, xüsusilə stalinizm ideologiyasına qulluq edənlərdə narahatlıq doğururdu. Onun azad yaradıcılıq axtarışları və poetik orijinallığı sistemin "idarəolunan ədəbiyyat" modelinə zidd idi. Məhz bu səbəbdən Müşfiq getdikcə daha sərt və qərəzli tənqidlərə məruz qalırdı.

SSRİ-nin o zamankı rəhbəri İosif Stalinin repressiyalarının ideoloji təməl üzərində genişləndiyi 1930-cu illərin sonlarında Mikayıl Müşfiqə qarşı hücumlar zamanla onu "xalq düşməni" kimi damğalamağa yönəlmiş siyasi ittihamlara çevrildi. Hətta əvvəlki illərdə loyal mövqe sərgiləmək məqsədilə yazdığı ideoloji məzmunlu əsərlər belə prosesin qarşısını almağa kifayət etmədi. 1937-ci ilin 20 iyun tarixli "Kommunist" qəzetində Ə.Əkbər imzası ilə dərc olunan "Ədəbiyyatda düşmən qalıqları axıradək ifşa edilməli" adlı məqalə bu baxımdan olduqca xarakterik nümunədir. Məqalədə Müşfiq və onun ədəbi çevrəsi "müsavatçı", "pantürkist", "xalq düşməni" kimi sərt ifadələrlə ittiham olunur, onun Hüseyn Cavid və Əhməd Cavadla bir sırada "ədəbiyyata zəhər saçan ünsür" kimi təqdim edilməsi siyasi təqibin ideoloji əsasını formalaşdırırdı. Yazının bu hissəsi xüsusi diqqət çəkir:

"Azərbaycan Sovet Yazıçıları İttifaqına soxulan kontrrevolyusioner, alçaq müsavatçıların havadarı - ikiüzlü Əhməd Cavad, Hüseyn Cavid, Sanılı və onların ayrılmaz quyruğu Mikayıl Müşfiq... öz pantürkist çıxışları ilə əsl reaksion simasını çoxdan bəri göstərmişdir...".

Belə qərəzli yazılar artıq ədəbi mübahisələr deyil, siyasi repressiyaların intellektual hazırlıq mərhələsi idi. Məqsəd Müşfiq kimi yaradıcı və azad düşüncəli şairlərin cəmiyyət üçün təhlükəli obrazını yaratmaq və onları ictimai rəydə təcrid etmək idi. Sözə tən verən, sözlə azadlıq deyən Mikayıl Müşfiqin adı isə həmin illərdə ədəbi kürsülərdə yox, ittiham tribunalarında hallanırdı. Ədəbi tənqid artıq sənətin meyarlarını deyil, ideoloji konvertasiyasını ölçən soyuq alətə çevrilmişdi və bu alət düz Müşfiqin qəlbinə tuşlanmışdı. Bədxahlar güman edirdilər ki, Mikayıl Müşfiqi fiziki olaraq məhv etməklə onun adını da, sözünü də tarixdən silə biləcəklər. Onlar elə zənn edirdilər ki, cəlladın barmağındakı tətik sənətkarın unudulması üçün yetərli olacaq. Lakin yanıldılar. Əksinə, Mikayıl Müşfiq zamanın yaddaşında tarixləşdi. Onun 29 illik qısa, lakin dəyərli ömrü, sanki 80-100 il yaşayan ədibin zəngin irsini bizə bəxş etdi. Yazdığı hər misra zamanla iti qılınca çevrildi. Mikayıl Müşfiq həbs olunmamışdan 2-3 ay öncə Ayna Sultanova onu yanına çağırıb demişdi ki, artıq biz Hüseyn Cavidi itiririk, onu həbs edəcəklər, onun əleyhinə bir iki yazı yaz səni repressiyadan qurtara bilərik. O zaman Mikayıl Müşfiq deyir: "Mənim sağ əlim Cavid əleyhinə bir söz yazsa, sol əlimlə onu baltalayaram".

1937-ci il yanvarın 4-ü gecə saat 3 radələrində Müşfiqin qapısına zülmət çökdü, şairi evindən apardılar. İttihamlar isə necə də tanış səslənirdi: "sovet quruluşunun düşməni", "pantürkist", "panislamist"… və daha neçə-neçə uydurmalar. Amma bu sətirlərin arxasında tək bir həqiqət vardı - azad düşüncə, azad söz və onu qorumaq istəyi. Müşfiq də öz aqibətini öncədən hiss etmişdi. Zamanın nəfəsini duymuşdu, qorxmamışdı, hətta gələcək faciəsini poeziyanın dili ilə dilləndirmişdi:

*Mən gəncəm, bilirəm istiqbalım var,*
*Hələ bədr olmamış bir hilalım var.*
*Yelkənim açılır, qara yel əsmə,*
*Mənim bu dünyada bir sandalım var.*

Mikayıl Müşfiq bütün iddiaları qətiyyətlə inkar etmiş, nə hər hansı gizli təşkilata üzv olduğunu, nə də sovet quruluşuna qarşı mövqe sərgilədiyini qəbul etmişdi. Həbsxana divarları isə bu sadə inkarın yetərli olmayacağını pıçıldayırdı. Müşfiqin başına gətirilənlər insan ağlının və vicdanının təsəvvür etməkdə aciz qaldığı qəddarlıq nümunələridir. Ona qarşı tətbiq edilən fiziki və psixoloji işgəncələr xalqın söz ruhuna zərbə idi. Əvvəlcə əl və ayaq dırnaqları çıxarılmış, sonra isə içində siçovullar olan su quyusuna salınaraq iki gün orada saxlanılmışdı. Ardınca təkadamlıq kamerada yerə səpilmiş şüşə qırıntıları üzərində ayaqyalın gəzməyə məcbur edilmişdi. Bu işgəncələrlə onu ruhdan salmaq, iradəsini sındırmaq istəyirdilər. Üzünə duranlar gətirilmişdilər, dostlar, tanışlar…

1938-ci il yanvarın 6-da cəmi 15-20 dəqiqə çəkən məhkəmənin hökmü ilə ölümə məhkum etdilər və "Qanlı ada" kimi yaddaşlarda həkk olunan keçmiş Nargin adasında qətlə yetirdilər. Şair yazırdı:

*Ah, mən gündən-günə bu gözəlləşən*
*İşıqlı dünyadan necə əl çəkim?*
*Bu yerlə çarpışan, göylə əlləşən*
*Dostdan, aşinadan necə əl çəkim?*
*Həyat dedikləri bu keşməkeşdən,*
*Qəlbimdə, qanımda yanan atəşdən,*
*Gecədən, gündüzdən, aydan, günəşdən,*
*Bu əngin fəzadan necə əl çəkim?*

1956-cı il mayın 23-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarına əsasən şairə ölümündən sonra bəraət verdilər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Mikayıl Müşfiq Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**